*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 dekabr 2016-cı il № 95 (2110) Qiyməti 25 qəpik

# Prezident, Ali Baş Komandan İlham Əliyev Tərtərdə yeni inşa edilmiş "N" hərbi hissəsində olub

*Dekabrın 3-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Tərtərdə yeni inşa olunmuş "N" hərbi hissəsində olub.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Məlumat verildi ki, hərbi hissənin ərazisində qərargah, iki kazarma, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana yaradılıb. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün burada idman şəhərciyi də salınıb. Bundan başqa, hərbi hissənin ərazisində müxtəlif növ texnika və avtomobillərin saxlanıldığı park da var.

Qərargah binasında ulu öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını, hərbçilərlə görüşlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb.

**(Ardı 2-ci səhifədə)**



## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı tariximizdir

*Prezident İlham Əliyev Tərtərə səfəri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə aprel döyüşlərinin bizim şanlı tariximiz olduğunu deyib. Dövlətimizin başçısı aprel döyüşləri zamanı Azərbaycan Ordusunun da, Azərbaycan vətəndaşının da qəhrəmanlıq göstərdiyini vurğulayıb. Ordumuzun düşmənin hücumuna cavab olaraq hərbi qələbə qazandığını söyləyən Prezident Azərbaycan Silahlı Qüvvələrinin əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirərək həm bu istiqamətdə, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində - indiki Ağdərə rayonunda, eyni zamanda, Cəbrayıl, Füzuli istiqamətlərində böyük ərazini işğalçılardan azad etdiyini diqqətə çatdırıb.*

- Mən sizi salamlayıram, yenidən Tərtərdə olmağımdan çox məmnunam. Bu gün Tərtər rayonunun həyatında çox əlamətdar bir gündür. Tərtər şəhərinin su və kanalizasiya problemi artıq həll olunur. Çox gözəl, böyük layihədir. Bilirəm ki, əvvəlki illərdə su problemi insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıb. Tərtər şəhərinin sakinlərinə təmiz içməli su veriləcək və eyni zamanda, kanalizasiya xətləri də tam istismara hazırdır. Gələcək mərhələdə ətraf kəndlərə də içməli su veriləcək.

Bu, böyük infrastruktur və sosial layihədir. Bu layihənin icrası üçün biz xarici kreditlərdən istifadə etdik, eyni zamanda, Azərbaycan dövləti də büdcə vəsaiti ayırdı. Çünki su layihələrinin icrası böyük vəsait tələb edir. Ancaq bu vəsaitin büdcəyə qayıtması məsələsi uzun illər çəkir. Yəni, bu layihənin icrası sırf sosial məna daşıyır ki, Tərtərə keyfiyyətli su verilsin, insanlar təmiz içməli su ilə təmin olunsunlar. Su insanın sağlamlığı üçün başlıca amildir.

Tərtər rayonunun uğurlu inkişafı məni çox sevindirir. Şəhərin abadlaşması, şəhərdə və rayonda infrastruktur layihələrinin icrası göstərir ki, Azərbaycanın bütün bölgələri uğurla inkişaf edir və bizim vaxtilə qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramı həyatda öz əksini tapır. Biz son illər ərzində bunu Tərtər rayonunun timsalında görürük. Tərtər şəhəri abadlaşıb, gözəlləşib. Mən 10 il bundan əvvəl Prezident kimi birinci dəfə Tərtər rayonunda olmuşam, bu yerdə vətəndaşlarla görüşmüşəm. O vaxt Tərtərin siması tam başqa idi. Bu gün Tərtər müasir, abad şəhərdir, rayon inkişaf edir, vətəndaşlar daha da yaxşı yaşayırlar. Magistral yolların, kənd yollarının çəkilişi, qazlaşdırma ilə bağlı böyük infrastruktur layihələri icra edilir. Tərtər rayonunda qazlaşdırma 90 faizdən çoxdur, 100 faizə çatmalıdır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün içməli su məsələsi də öz həllini tapır. Yəni, əsas infrastruktur məsələləri bunlardır. Bu, birinci mərhələdə görüləsi işlər idi.

**(Ardı 3-cü səhifədə)**

# Prezident, Ali Baş Komandan İlham Əliyev Tərtərdə yeni inşa edilmiş "N" hərbi hissəsində olub





(Əvvəli 1-ci səhifədə)

Burada hərbi hissə növbətçisi, istirahət və çay otaqları, rabitə qovşağı və digər zəruri otaqlar var. Hərbi hissədəki kazarmaların girişində Azərbaycanın Milli qəhrəmanlarının fotolarından ibarət guşə də var. Burada müasir idman avadanlığı ilə təchiz edilmiş idman otağı zabit və əsgərlərin ixtiyarındadır. Kazarmada dəftərxana, məişət otağı, ideoloji otaq yaradılıb. İdeoloji otaq Azərbaycan Silahlı Qüvvələrinin şərəfli tarixini, şanlı ordumuzun əldə etdiyi qələbələri və dövlətimizin Azərbaycan hərbçilərinə göstərdiyi diqqəti əks etdirən əyani vəsaitlərlə təchiz olunub.

Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Aprel döyüşləri bir daha sübut edir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Ali Baş Komandan İlham Əliyev hərbi hissənin döyüş texnikasına baxdı, döyüş maşınlarından birini idarə etdi.

Əsgər və zabit heyətinin dolğun və keyfiyyətli qidalanması üçün hərbi hissənin yeməkxanası da müasir səviyyədə qurulub.

Dövlətimizin başçısı burada yaradılmış şəraitlə də tanış oldu, yeməkxananın xidmət heyəti ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** Əvvəllər bu işləri əsgərlər görürdülər, yemək bişirirdilər. Bu, onları əsas işindən ayırırdı. İndi bu işə mülki vətəndaşlar cəlb olunub, həm də yaxşı maaş verilir, qadınlar da işləyir. Həm də çox yaxşı yemək bişirirsiniz.



**Aşpaz qadın:** Çox sağ olun. Gələn ayaqlarınız var olsun. Həmişə Sizinlə fəxr etmişik. Sizin sayənizdə Tərtər rayonumuz gözəlləşir, su-kanalizasiya xətləri çəkilir.

**Prezident İlham Əliyev:** Bəli, bu gün açılışını etdik.

**Aşpaz qadın:** Dağılan evlərimizin, müəssisələrimizin hamısı Sizin sayənizdə bərpa olunub, düzəlib. Uşaqlarımıza, ordumuza, əsgər balalarımıza, bax, bu cür şərait yaradılıb, dadlı milli xörəklər bişirilir.

**Prezident İlham Əliyev:** Siz də uşaqlara, əsgərlərə yaxşı baxırsınız. Daha da yaxşı baxın ki, onlar razı qalsınlar.

**Aşpaz qadın:** Allah Sizdən razı olsun. Allah Sizi qorusun. Biz həmişə Sizinlə fəxr etmişik.

Sonda xatirə şəkli çəkdirildi.

## Mövlud Çavuşoğlu:
## Ermənistan qoşunları işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxmalıdır

Dekabrın 3-də Azərbaycan Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

Elmar Məmmədyarov qeyd edib ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və regional məsələlər müzakirə olunub. Həmçinin görüşdə Bakı-Tbilisi-Qars dəmir yolu xətti və TANAP layihəsi ilə bağlı da geniş fikir mübadiləsi aparılıb.

Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxmalı olduğunu deyən Türkiyənin xarici işlər naziri bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk Qrupu səylərini gücləndirməlidir.

## "Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsinin həllini yeni xarici siyasət konsepsiyasına daxil etməsini alqışlayırıq"

Yeni xarici siyasət konsepsiyasında Rusiya Federasiyası tərəfindən digər həmsədr ölkələrlə qarşılıqlı fəaliyyət şəraitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin prioritet vəzifələr sırasında müəyyən olunmasını alqışlayır və təqdir edirik.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O deyib: "Konsepsiyada münaqişənin həlli prosesində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçılarının 2009-2013-cü illərdə verdikləri bəyanatlarında ifadə olunan prinsiplərin əsas götürüldüyü qeyd olunur.

Qeyd etmək lazımdır ki, bu bəyanatlarda ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri dövlət başçıları səviyyəsində xüsusilə mövcud status-kvonun qəbuledilməzliyini və qeyri-davamlı olduğunu vurğulayırlar.

Azərbaycan tərəfi prezidentlərin Sankt-Peterburq görüşündə aparılmış müzakirələrə uyğun olaraq, Rusiya və ATƏT Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə münaqişənin substantiv danışıqlar yolu ilə həlli, qəbuledilməz və qeyri-davamlı olan mövcud status-kvonun tezliklə dəyişdirilməsi istiqamətində konstruktiv addımlarını davam etdirəcək".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__5 dekabr 2016-cı il.__

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 57 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Qaymaqlı kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

__6 dekabr 2016-cı il.__

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 65 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı tariximizdir

**(Əvvəli 1-ci səhifədə)**



Bununla bərabər rayonun sosial-iqtisadi inkişafına da böyük diqqət göstərilmişdir. Burada çoxlu məktəblər, uşaq bağçaları, sosial obyektlər tikilmişdir. Yəni, rayonun iqtisadiyyatına və sosial inkişafına dövlət tərəfindən çox böyük vəsait ayrılmışdır.

Növbəti mərhələdə iş yerlərinin yaradılması istiqamətində əlavə tədbirlər görüləcək. Xüsusilə kənd təsərrüfatının inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bizim kənd təsərrüfatı ilə bağlı son təşəbbüslərimiz üzrə Tərtərdə görülən işlər buradakı təqdimatda əksini tapıb.

Baramaçılıq, pambıqçılıq inkişaf edir. Gələn il 3 min hektarda pambıq əkiləcək, minlərlə insan bu işlərə cəlb olunacaq. Baramaçılığın da həm dövlətə, həm də insanlara çox böyük xeyri var. Yəni, qısa müddətdə - 30-40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Xüsusilə nəzərə alınmalıdır ki, dövlət bu sahəyə öz dəstəyini əsirgəmir. İndi xaricdən tinglər gətirilir, təsərrüfatlara verilir.

Kənd təsərrüfatının daha sürətlə inkişaf etdirilməsi üçün digər tədbirlər də görülür. Siz yaxşı bilirsiniz ki, subsidiyalar, yanacağa, gübrəyə dotasiyalar, güzəştli şərtlərlə texnika verilir. Bütün bunları dövlət öz üzərinə götürüb ki, insanlara daha da yaxşı şərait yaratsın. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Hesab edirəm ki, Azərbaycan bu istiqamətdə də dünya miqyasında nümunəvi ölkədir. Çünki mən öz fermerlərinə bu qədər diqqət göstərən ikinci ölkə tanımıram və bunun nəticəsində, - baxmayaraq ki, indi dünyada və bizim bölgəmizdə böhran yaşanır, - Azərbaycanda kənd təsərrüfatı inkişaf edir. Bu il də artım var, gələn ildə də artım olacaq. Bir sözlə, qarşıdakı mərhələdə sahibkarlığın inkişafı, investisiyaların cəlb edilməsi ilə bağlı növbəti addımlar atılacaq.

Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada - döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir.

Aprel döyüşləri, ümumiyyətlə, bizim şanlı tariximizdir. Azərbaycan Ordusu da, Azərbaycan vətəndaşı da qəhrəmanlıq göstərmişdir. Ordumuz düşmənin hücumuna cavab olaraq hərbi qələbə qazanmışdır. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirərək həm bu istiqamətdə, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində - indiki Ağdərə rayonunda, eyni zamanda, Cəbrayıl, Füzuli istiqamətlərində böyük ərazini işğalçılardan azad etmişdir. Ermənilərin uzun illər öz ordusu haqqında yaydıqları mif darmadağın edildi. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kim nəyə qadirdir. Ermənilər əlverişli mövqelərini tərk edərək, qorxudan qaçıb gizlənmişdilər. Onların kəndlərində yaşayan insanların sayı getdikcə azalır. Ancaq Tərtərdə, Ağdamda bir nəfər belə yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır. Bu, bir daha xalqımızın ucalığını göstərir. Xüsusilə Tərtər sakinlərinin belə davranışı, hərəkəti, hər bir vətəndaş üçün nümunə olmalıdır. İndi siz burada, düşmənlə üz-üzə, ön cəbhədə nəinki yaşayırsınız, yaradırsınız, qurursunuz və əminsiniz ki, Azərbaycan dövləti və Azərbaycan Ordusu sizin təhlükəsizliyinizi təmin edir.

Bir daha demək istəyirəm ki, aprel döyüşləri tarixi hadisədir. Azərbaycan bu döyüşlərdə nəinki öz gücünü göstərdi, düşmənə və dünyaya bir daha sübut etdi ki, biz indiki vəziyyətlə heç vaxt barışmayacağıq. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Şuşa da, Xankəndi də, hələ ki, işğal altında qalan digər bütün torpaqlar da. Bizim tarixi coğrafiyamız çox geniş olub. Tarixçilər son vaxtlar bu barədə yaxşı elmi əsərlər, kitablar yazırlar. Onu da qeyd etməliyəm ki, bu məsələlər mənim tövsiyəmlə öz həllini tapır. Misal üçün, İrəvan xanlığı haqqında çox böyük elmi əsər yaradılmışdır. Bu əsər bir neçə dilə tərcümə edilmişdir ki, həm Azərbaycan vətəndaşları bunu bir daha bilsinlər və dünya da bilsin ki, İrəvan bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində İrəvanın əhalisinin 70 faizi azərbaycanlılar idi. Göyçə, Zəngəzur bizim tarixi torpaqlarımızdır.

Bunu artıq XX əsrin tarixi də göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin demək olar ki, birinci qərarı, - əfsuslar olsun ki, belə bir qərar verildi, - ondan ibarət idi ki, İrəvanı Ermənistana hədiyyə edək. Bu, çox böyük səhv, böyük cinayət idi. Bilirsiniz, Xalq Cümhuriyyətinin mövcudluğu bizim qürur mənbəyimizdir. Müsəlman aləmində ilk dəfə demokratik respublika yaranmışdır və yaxşı da işlər görülmüşdür. Amma biz gərək tarixi olduğu kimi bilək və insanlar da bilsinlər. İrəvanı Ermənistana vermək tarixi cinayət idi. Çünki öz doğma torpağını verdilər.

Bu gün bizim indiki Ermənistan Respublikasının torpağında gözümüz yoxdur. Biz nə İrəvanı, nə Mehrini, nə Gorusu hərbi yolla qaytarmaq fikrində deyilik. Amma mən əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. Biz bunu ardıcıl siyasətlə, sülh yolu ilə edəcəyik. Bütün obyektiv səbəblər onu göstərir ki, o gün gələcək. Sadəcə olaraq bizim hər birimiz o günü yaxınlaşdırmalıyıq. Necə yaxınlaşdırmalıyıq? Daha da güclü olmalıyıq. Bu gün dünyada artıq beynəlxalq hüquq anlayışı demək olar ki, iflasa uğrayıb. İndi güc əsas amildir. Bu, belədir. Biz də real dünyada yaşayırıq. Ona görə daha da güclü olmalıyıq, daha güclü ordu qurmalıyıq. İqtisadiyyat daha da güclü olmalıdır, inkişaf daha da sürətlə getməlidir. Baxın, hətta böhranlı illərdə ölkə əhalisinin sayı getdikcə artır və artacaq. İndi biriki ilə Azərbaycan əhalisi on milyona çatacaq. Bu meyil davam edir. İndi əhali nə qədər çox artırsa, sonrakı illərdə də artım daha yüksək olacaq.

Ermənistanda isə əhali azalır. Bu, həm təbii səbəblər, həm miqrasiya, həm də ümidsizlik, çarəsizlik, özbaşınalıq üzündən baş verir. Ermənistanın indiki faşist rejimi faktiki olaraq ölkədə dözülməz şərait yaradıb. Ona görə də orada əhali daha da azalacaq, çıxıb gedəcək, necə ki, indi çıxıb gedir. Biz torpaqlarımıza qayıdacağıq. Qayıtmaq üçün düşünülmüş strategiya, konsepsiya olmalıdır. Bu, var. Strateji xəttimiz müəyyən olunub və biz hər il taktiki addımları atacağıq. Birincisi, bu, tarixi məsələdir. İkincisi isə bu, ədalətli məsələdir. Biz ədalətin tərəfdarıyıq və ərazi bütövlüyümüzü bərpa etməliyik. Heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Əksinə, çalışmalıyıq və çalışacağıq ki, ölkəmizin gücünü artıraq, möhkəmləndirək və istəyimizə nail olaq.

Cəmiyyətdə bu məsələ ilə və bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik var. Bizim uğurlu inkişafımız reallıqdır. Hətta böhranlı illərdə də bu inkişafa nail oluruq. Bizim inkişafımız bölgələrin inkişafından asılıdır. Biz bu inkişafı Tərtər rayonunun timsalında görürük. Bu gözəl nəticələr münasibətilə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

# “İrəvan, Göyçə, Zəngəzur bizim torpaqlarımızdır”

*"Aprel döyüşləri zamanı ermənilər işğal edilmiş torpaqlarımızın bir hissəsindən qaçıb getdilər, amma biz dayandıq, çünki biz öz torpağımızdayıq. Onlar isə başa düşürlər ki, öz torpaqlarında yaşamırlar". Bunu Prezident İlham Əliyev Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.*

Prezident Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini qeyd edib: "Bizim tarixi torpaqlarımız təkcə Dağlıq Qarabağın ərazisi deyil. İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır, tarixi torpaqlarımızdır. Ermənistan vaxtilə bizim o torpaqlarda qanunsuz olaraq dövlət qurub, indi də bizim torpağımızda ikinci dövlət qurmaq istəyir. Azərbaycan xalqı heç vaxt buna imkan verməyəcək, aprel döyüşləri bir daha onu göstərdi. Onu göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, biz güclü dövlətik, güclü ordu yaratmışıq. Azərbaycan bu gün dünya miqyasında böyük hörmətə malik olan ölkələrdən biridir və Azərbaycan vətəndaşları öz torpaqlarını qorumağa qadirdirlər.

Ona görə aprel döyüşlərində qələbəmiz bizim - həm dövlətimiz, həm dövlətin bir qolu olan ordumuz, həm də vətəndaşlarımız üçün qəhrəmanlıq səhifəsidir. Bax, bu birlik bizdə var və əgər vətəndaşlar o vaxt bu qədər cəsarət göstərməsəydilər, əlbəttə ki, bu, bizim işimizə də mənfi təsir göstərə bilərdi. Vətəndaşlar öz cəsarəti ilə hərbçilərimizə əlavə güc, inam verdilər. Hərbçilərimiz də bilirdilər ki, onların arxasında Azərbaycan vətəndaşları yaşayır, onlar vətəndaşları qorumalıdırlar".

Dövlət başçısı Ermənistanın siyasi rəhbərliyinin növbəti dəfə öz çirkin və eybəcər sifətini göstərdiyini qeyd edib: "Necə ki, 1990-cı illərin əvvəllərində onlar mülki əhaliyə qarşı qəddarlıq, cinayət törətmişdilərsə, bu dəfə də döyüş meydanlarından qorxaraq qaçan, öz məğlubiyyətini etiraf edən Ermənistan rəhbərliyi göstəriş verdi ki, mülki əhaliyə qarşı cinayət törədilsin. Biz heç vaxt mülki əhaliyə qarşı heç bir əməliyyat aparmamışıq. Bizim problemimiz işğalçı qüvvələrlədir. Onlar isə gördü ki, artıq duruş gətirə bilmirlər, başladılar bizim kəndləri bombalamağa. Ümid edirdilər ki, bizim vətəndaşlar bundan narahat olaraq bu bölgələri tərk edəcəklər. Alınmadı. Çünki Azərbaycan xalqı qəhrəman xalqdır. Siz - bax burada yaşayan, aprel hadisələrində buradan tərpənməyən vətəndaşlar bizim qürur mənbəyimizsiniz, biz sizinlə fəxr edirik".

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

Ön xətdən reportaj

# Dövlətin və xalqın qayğısı ilə artan hərbi gücümüz

*Yenə redaksiyadan tapşırıq alıb növbəti ezamiyyətə yola düşürəm. Bu dəfə səfərim isə Azərbaycanın qərb bölgəsinə - səfası, təbiəti ilə dilimizin əzbəri olan rayonlarımızdan birinədir. Həmişə bu rayona gələndə müstəqilliyimizin ilk illərində burada da insanların qarşılaşdığı çətinlikləri, çörəklə sınağa çəkildiyi ağrılı-acılı günləri xatırlayıram. Amma iqtisadi böhran burulğanında yaşayan adamlar sərhəd kəndlərini erməni hərbi birləşmələrinin aramsız basqınlarından qorumaq üçün bir yumruq kimi birləşmişdi. Qocasından, cavanından asılı olmayaraq hamı düşmənlə mübarizədə əlbir idi. İndiki kimi yadımdadır, tabor komandiri ilə ön xətdəki mövqelərə qalxanda bir kəndin kənarında əlində bağlama olan yaşlı bir ana qarşımıza çıxdı. "Ay komandir, süddən-qatıqdan əsgərlərimiz üçün pay hazırlamışam, bunu da onlara aparın". Həmin nurani qadını daim bu yerlərə gələndə xatırlayıram.*



İndi isə o vaxtlar deyil, artıq ordunun ehtiyacları dövlətin hesabına tam ödənilir, əsgərlərimiz evlərində olduğundan da artıq yemək, meyvə-tərəvəz və mövsümə uyğun kalorili qidalarla təmin edilir. Müdafiə nazirimiz ordunun şəxsi heyətinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl həyata keçirilən tədbirlərdə birmənalı olaraq vurğulayır ki, bu gün Azərbaycan Ordusu dövlətin və xalqın qayğısı ilə əhatə olunaraq daha da güclənir. "Bir faktı daim qeyd etməyi özümə borc bilirəm ki, ordumuzda aparılan islahatlar, həyata keçirilən genişmiqyaslı quruculuq işləri Azərbaycan dövlətinin və xalqımızın, ən başlıcası möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin orduya göstərdiyi qayğının nəticəsidir", - deyə general-polkovnik Zakir Həsənov bildirir.

Səhər tezdən hərbi hissənin qərargahına yetişəndə burada döyüş yolu keçmiş təcrübəli zabit Daşqın Bənnayevlə görüşüb gəlişimizin məqsədini ona bildirirəm. O, cavabdeh zabitlərin ön xətdəki bölmələrdə döyüş növbətçiliyinə nəzarət etdiklərini deyir və həmin istiqamətə yola düşməyimiz üçün maşın ayrılmasına göstəriş verir. Çox keçməmiş zabitlərdən biri ilə ön xəttə gedirik. Gedəcəyimiz istiqamətiyolda xəbər alanda iki il əvvəl həmin bölmələrdə olduğumu dedim. Zabit Emin Vəliyev isə, "İndi o yerlərdə yaradılmış şəraiti görəndə, heyran qalacaqsan", - söyləyir. Doğrudan da, bir az irəli getdikdən sonra o vaxt gəldiyim bölmənin yerində ən müasir məişət şəraitinin yaradıldığını görüb qürur duyuram. "Lap qısa vaxtda nə qədər işlər görülüb".

Bölmədə qarşılaşdığım baş leytenant isə mənə tanış gəlir, harada gördüyümü xatırlamağa çalışıram. Zabitə görə, iki il əvvəl "Gənc zabitlərimiz" rubrikasında qələmə aldığım yazılardan birinin qəhrəmanı olub. Yerini, yurdunu soruşanda yaxşı xatırladım, yüksəkliklərdən birində döyüşçülərdən qeydlər götürəndə onu ən bacarıqlı gənc zabit kimi təqdim etmişdilər. Kəlbəcərdən olan baş leytenant İlham Fərzəliyevi deyirəm. Təcrübəli, vətənpərvər hərbçidir, tək doğulduğu el-obanın deyil, işğalda olan yurd yerlərimizin düşməndən təmizlənməsi üçün haqq savaşına o da hər an hazırdır.

- Bu gün tabeliyimizdə olan döyüşçülərin hamısı Ali Baş Komandanın bircə əmrini gözləyir ki, silaha sarılıb torpaqlarımızı işğalçılardan azad etmək uğrunda mübarizəyə atılsın, - deyir zabit. - Hər birimiz qisas hissi ilə yaşayırıq, axı düşmən neçə illərdi ki, əzəli torpaqlarımızın bir hissəsini zəbt edib. İndi mənim ata ocağım kimi o yerlər də doğma sakinlərinə həsrət qalıb. Əgər müharibə başlayacaqsa, apreldə olduğu kimi zəfər bizim olacaq. Şəxsi heyətin mənəvi hazırlığına cavabdeh olan bir zabit kimi buna tam əminəm.

Sonra zabit son illər orduda həyata keçirilən sosial islahatlardan, tikinti-abadlıq işlərindən söhbət açır. Deyir ki, bütün görülən tədbirlər Prezidentimizin, dövlətin və xalqımızın əsgərə, döyüşçüyə verdiyi önəmin parlaq nümunəsidir.

Söhbətimizi yarımçıq kəsib səngərlərə gedirik, müşahidə postlarında döyüş növbəsində dayanan Vətənimizin igid oğulları ilə görüşürük. Hər biri ilə görüş adama xoş hisslər aşılayır, çünki onlar gecə-gündüz, boran-sazaq bilmədən torpaqlarımızı yağılardan qoruyurlar. Qoruyurlar ki, xalqımız əmin-amanlıq şəraitində yaşasın, düşmən onların gücündən vahiməyə düşsün.

Səngərdə ilk müsahibim manqa komandiri çavuş Elvin Vəliyevdir. Doğulduğu rayon Ermənistanla həmsərhəd olduğu üçün Qarabağ müharibəsi illərində bu yerlər də düşmənin hücumlarına məruz qalıb. Elvin deyir ki, o vaxtlar uşaq yaşlarında olsa da, həmin dövrü xatırlaya bilir. Həm də ona görə xatırlaya bilir ki, onun da yaxınları, qohumları arasında könüllü döyüşçülər az olmayıb. "Əmim də müharibəyə getmişdi, evimizə gələndə onun silahına, hərbi formasına həsədlə baxardım. Fikirləşirdim ki, mən də böyüyəndə əmimə oxşayacam, Vətən adlı bir ömür yaşayacam".

Artıq beş ildir ki, Elvin Vəliyev də müqavilələ hərbi qulluqçularımız sırasındadır, məqsədi, amalı müqəddəs savaşda, Vətənimizin ərazi bütövlüyünün təmin edilməsində yaxından iştirak etməkdir. "Bir ədəbiyyat müəllimimiz vardı, bizə Vətən sevgisindən danışardı, yurdu, el-obanı qorumağın gənclərin ən vacib vəzifəsi olduğunu deyərdi. "Bayrağımızı sevin, himnimizi oxuyanda əllərinizi ürəyinizin üstünə qoyun, çünki bunlar müstəqilliyimizin rəmzi olduğu üçün müqəddəsdir" söyləyərdi. Əsgərliyə çağırılan gün valideynlərimə sonradan hərbçi olacağımı dedim..."



- Bir il, üç il əvvəl də bacarıqlı əsgərlərim olub, indi də əlaqələrimiz var, bir-birimizdən tez-tez hal-əhval tuturuq. Bilirəm ki, müharibə başlayan kimi onlar da mənimlə çiyin-çiyinə olacaqlar. Axı kişi sözü veriblər. "Komandir, torpaqlarımızın azadlığı üçün səninlə bir sırada olmasaq, kəsdiyimiz duz-çörək bizə haram olar". Onların anda sədaqətli Vətən oğulları olduğuna varlığımla inanıram. Hər biri mətin, iradəli döyüşçü idi, - deyə çavuş yola saldığı illərə, xatirələrinə baş vurur. - Düşmənlərimiz apreldə gücümüzü gördülər, nəyə qadir olduğumuzu anladılar. Əgər danışıqlar, sülh yolu ilə ərazilərimizi geri qaytarmasalar, ayaqlarının altı od tutub yanacaq. Onlar kimi istilaçı, işğalçı deyilik, biz yalnız öz ata-baba torpaqlarımızı azad etmək niyyətindəyik. Haqq bizim tərəfimizdə olduğuna görə, qələbə də bizim olacaq.

Sonra Quba rayonundan olan döyüşçü Valeh Nemətov danışır. Bir ilin əsgəridir, qumbaraatan vəzifəsində artıq 8 aydır ki, ön xətdədir. "Düşmənlə təmas xəttində xidmət etmək məsuliyyət hissimizi daha da artırır. Yaxşı bilirik ki, yağılar gücümüzə bələd olmasalar, sakit dayanmaz, yeni təxribatlara əl atarlar".

- Valeh, bəs post başçısı deyir ki, arabir atırlar?

- Qorxularından atırlar. Təxribat törətməkdən çəkinirlər, çünki apreldə ordumuz onların dərsini layiqincə verib.

Kamran Paşayev isə orduya paytaxtın Binəqədi rayonundan çağırılıb. Sinəsini düşmənə sipər edən əsgər ordu həyatında yaddaqalan günlərindən danışır, "Postda keçirdiyim hər gün ömrümün ən əlamətdar çağıdır" söyləyir. Həmişə bu fikirdəyəm ki, səngər ömrü gənclərimizə əsl həyat məktəbidir, burada Vətən sevgisi ilə ürəkləri döyünən əsgərlərimiz həm də cəmiyyətimiz üçün gərəkli vətəndaş kimi yetişirlər. Bir ay, üç ay sonra hərbi xidmətlərini başa vuracaq gənclərimiz təcrübəli döyüşçü kimi formalaşaraq istənilən anda Vətənin çağırışına hazır olacaqlar. Apreldə də bunun şahidi olduq, müxtəlif bölgələrdən olan yüzlərlə gənc cəbhə xəttinə axışaraq döyüşmək üçün komandanlığa müraciət etmişdi. Amma hələ ki, kənardan köməyə ehtiyac yoxdur, çünki dövlətimizin və xalqımızın dəstəyi ilə hərbi qüdrətini günbəgün artıran Silahlı Qüvvələrimizin şəxsi heyəti qarşısına qoyulan mühüm tapşırığı uğurla yerinə yetirməyə tam hazır və qadirdir.



**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

Gənc zabitlərimiz

# Uğurlarımızın təminatı



Dövlət istiqlaliyyətini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət dövlətçiliyimizi möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilib. Milli mənafelərin qorunması həm də Silahlı Qüvvələrin möhkəmlənməsi prosesindən keçir. Azərbaycanın müharibə vəziyyətində olması tələb edir ki, dövlətin təhlükəsizliyinin təminatı yolunda gənc zabitlərimiz bilik və bacarıqlarını günbəgün artırsınlar.

Dövlətin dəstəyini daim həyatında hiss edən gənclərimizdən biri də taqım komandiri leytenant Ağəli Bağırovdur. Yeniyetmə yaşında Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənəd vermək qərarına gələn zabit Şamaxı rayonunda dünyaya göz açıb. Həm hərbçi ailəsində doğulması, həm də torpaqlarımızın bir hissəsinin işğal altında olması amili onun peşə seçimində xüsusi rol oynayıb. Vətənə məhəbbət ruhunda tərbiyə olunan gəncimiz ilkin hərbi vərdişlərlə kifayətlənməyərək təhsilini davam etdirmək üçün fərqli yol seçib. Hərbi liseyi müvəffəqiyyətlə bitirən gənc sonradan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.

- Azərbaycan dövlətinin və ordunun rəhbərliyi bilikli və bacarıqlı zabitlərin hazırlanmasına xüsusi diqqət göstərir, - deyə leytenant Ağəli Bağırov söhbətə başlayır. - Hərbi təhsilin ümumi məqsədi eynidir - Vətənimizin, millətimizin və dövlətimizin inkişafına maksimum faydalı olmaq. Bunun yolu isə fərdi inkişafdan və peşəkarlığa yiyələnməkdən keçir. "Bir insanın təşəbbüsü bütün dünyanı xilas edə bilər", fikrinə inanmağı bacarmalıyıq. Odur ki, mütərəqqi inkişaf üçün mütləq təhsil almalısan.

Leytenant Bağırov xaricdə təhsil aldığı illərə işıq salaraq bildirir: "Hərbi liseyin ikinci kursundan italyan dilini öyrənmək məqsədilə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində kurslara yazıldım. Üçüncü kursun sonlarında İtaliyada təhsil almaq üçün test imtahanlarına qatıldım. Testləri müvəffəqiyyətlə verdim və İtaliyanın Modern Hərbi Akademiyasına daxil oldum. İki il orada təhsil aldıqdan sonra NATO kurslarında iştirak etdim. Nəticədə paraşütçülük, alpinistlik, idman mütəxəssisi kurslarını bitirdim. Bir gənc zabit kimi zəruri olan biliklərə yiyələndim. Turin şəhərində hərbi təhsilimi davam etdirərək motoatıcı ixtisası üzrə magistr dərəcəsi aldım".

Qazandığı biliklər hesabına tabeliyində olan şəxsi heyətin formalaşdırılması prosesinə verdiyi töhfələrdən fəxr duyan gənc zabit onu da qeyd etdi ki, ilk növbədə torpaqlarımızın işğaldan azad edilməsi əsas amalımızdır. "Bundan ötrü isə tabeliyimizdə olan şəxsi heyətə də öz təcrübəmizi aşılamalıyıq. Şəxsi heyətə qayğı göstərməli, ruh yüksəkliyi yaratmalı və güvənc hissi formalaşdırmalıyıq. Əsgərimizin döyüş meydanında uğur qazanmasına zəmin yaradan bütün tədbirlərdən yetərincə faydalanmaq gərəkdir."

Leytanant Ağəli Bağırov kimi gənc zabitlərimizlə tanışlıqdan sonra bir daha əmin olursan ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsinə uğurlu təminatdır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Təcrübəli sürücü

*Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vüsal Bayramov 2014-cü ildən cəbhə bölgəsində, "N" hərbi hissəsində xidmət edir. Təcrübəli sürücü kimi verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirir. Vüsal deyir ki, bir amalımız var: torpaqlarımızı azad edəcəyimiz günə hazır olmaq.*



"Təlimlərdə həvəslə iştirak etməli, hərbi biliklərimizi artırmalıyıq. Verilən tapşırıqları bacarıq və peşəkarlıqla yerinə yetirməyə çalışmalıyıq. Həm nəzəri, həm də praktik məşğələlərdə gücümüzü ortaya qoymalıyıq. Təlimdə tər tökən döyüşdə məğlub olmaz", - Vüsal deyir.

On illik sürücülük təcrübəsi olan Vüsal Goranboy rayonunda dünyaya göz açıb. Böyüyüb boya-başa çatdığı ərazidə tez-tez hərbçilərlə rastlaşıb, özündə onlara bir doğmalıq hiss edib. Əsgərlik yaşına çatanda isə həvəslə hərbi xidmətə yollanıb. 2007-2008-ci illərdə ön xətdə yerləşən hərbi hissələrdən birində xidmət edib. Nizam-intizamlı əsgər kimi xidmətini başa vurub. Lakin Vətənə bağlılıq, hərb sənətinə olan sevgisi onu 2014-cü ildə yenidən ordu sıralarına qayıtmağa vadar edib. O, ordu həyatına ürəkdən bağlıdır. Əgər belə olmasaydı, bəlkə də əsgəri xidmətini başa vurduqdan sonra başqa sahələrə üz tutardı. Amma Vüsal düşünüb və qərara alıb ki, ordu sıralarına qatılsın. Axı cəbhə bölgəsində doğulub, bu dağların hər bir yamacına, ən dərin cığırlarına bələddir.

- Verdiyim qərardan, tutduğum yoldan çox razıyam, - deyir. - Çünki sevdiyim peşənin sahibiyəm. Həyatda bir işi görürsənsə, sevgi ilə görmək lazımdır, ancaq o zaman gördüyün işin öhdəsindən gəlmək olar. Vətənimi sevirəm. Sürücü kimi Vətənə, orduya xeyirli bir övlad olacağımı düşündüyüm üçün buradayam. Xidmətimdə nöqsanlara yol verməməyə çalışıram.

İki ildən artıqdır ki, "N" hərbi hissəsində xidmət edən sürücü barəsində komandirlərinin də xoş rəylərini eşitmək sevindirici oldu.

Onların sözlərinə görə, təcrübəli sürücü xidmətini nizamnamə çərçivəsində qurur. Nizam-intizamı, bacarığı ilə hamının rəğbətini qazanıb.

Vüsal Bayramovun idarə etdiyi UAZ-a minib döyüş postuna yollanırıq. Hava soyuq və yağışlı idi. Bu səbəbdən çətin keçilən dağ yolları irəliləmək bir az da çətinləşmişdi. Amma içimizdə bir rahatlıq vardı. Axı sürücümüz Vüsaldır...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

Tibb xidməti

# Vətənpərvər həkim



Sağlam bədəndə sağlam ruh olar... Sağlam ruh vətənsevərlikdir. Bu baxımdan Vətənimizin müdafiəsində dayanan əsgərlərin sağlamlığı daha çox diqqət çəkir. Cəbhə bölgəsində yerləşən hərbi hissədə zabit Nemət Məmmədovla görüşdüm. Söhbətimizin bir mövzusu da şəxsi heyətin sağlamlığı ilə bağlı oldu. O bildirdi ki, hərbçilərin sağlamlığına komandanlıq tərəfindən həmişə ciddi önəm verilir. "Əsgərləri müntəzəm həkim müayinəsindən keçirməklə onların sağlamlığını nəzarətdə saxlayırıq. Həm də birləşmənin tibb xidmətinə cavabdeh həkimlər bunun məsuliyyətini yaxşı dərk edirlər." O, tibb xidməti zabiti Səlim Səlimovun üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldiyini bildirdi.

Haqqında danışılan tibb xidməti zabiti 17 ildən artıqdır ki, hərbi xidmətdədir. Azərbaycan Tibb Universitetini terapevt-infeksionist ixtisası üzrə bitirəndən sonra Lənkəran şəhər xəstəxanasında ilk əmək fəaliyyətinə başlayıb. İlk dəfə ağ xalat geyinib xəstələrini müayinə edəndə müqəddəs peşəsinin ilk sevincini duyub. Nəhayət, bir gün tələbə yoldaşları kimi o da hərbi xidmətə çağırılır. Vətənin müsəllah əsgəri olmaq onun üçün də şərəf idi. Xidmət vaxtını başa vurandan sonra Səlim əsgər həyatından ayrılmaq istəmədi. Vətən oğullarının sağlamlığı keşiyində dayanmağı özünə mənəvi borc bildi.

Vətənpərvər həkim ilk gündən cəbhə bölgəsində xidmətə başlayıb. Ayrı-ayrı hərbi hissələrdə xidmətini davam etdirsə də, həmişə peşəsinin məsuliyyətini dərk edib. Əsgərlərin sağlamlığı onun üçün hər bir işdən önəmli olub. Bu məqsədlə bölmələrdə profilaktik tədbirlər keçirir. Mövsümlə bağlı infeksion xəstəliklərə qarşı səylə mübarizə aparır.

Cəbhə bölgəsində, düşmənlə üz-üzə mövqelərdə gecə-gündüz Vətənin müdafiəsində dayanan mərd oğulların sağlamlığını qorumaq daim onu düşündürür. Hamı kimi Səlim həkim də hər zaman ordumuzun uğurlu hərbi əməliyyatlar keçirəcəyi günü səbirsizliklə gözləyib. Torpaqlarımızın erməni tapdağı altında qalmasından hər zaman narahatlıq keçirib. Bu il aprelin əvvəllərində cəbhədə gərginlik yarananda torpaqlarımızın bütövlüklə azad ediləcəyinə onda da böyük ümid yaranmışdı. Aprel döyüşlərindən danışan Səlim həkim deyir:

- Aprel döyüşlərində ordumuz şərəfli bir tarix yazdı. Həmişə atəşkəsi pozmağa cəhd edən düşmənə qarşı belə qətiyyətli cavab verilməli idi. Döyüş zamanı həkimlərin də üzərinə böyük məsuliyyət düşmüşdü. Yaralılara ilk tibbi yardım göstərib onları təxliyyə etdik. Çox sevinirəm ki, yaralarını sarıdığım döyüşçülər sonradan sağalıb xidmət yerinə qayıtdılar. Onları yenidən öz bölmələrində görəndə özümdə bir rahatlıq tapdım. Döyüşdən sonra bizim fəaliyyətimiz də ordu rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

Səlim həkim o günləri daim qürurla xatırlayır. Ona görə ki, erməni işğalı altında olan torpaqlarımızın bir hissəsi azad edilib. Həm də aprel döyüşləri ermənilər üçün ciddi dərs oldu. Bundan nəticə çıxarmalıdırlar ki, başqa ölkənin ərazisini işğal etmək olmaz.

Tibb xidməti zabiti S.Səlimov günlərini səngərdə keçirir, orada xidmət edən əsgərlərin sağlamlığının qeydinə qalır. Tabeliyində olan həkimlərə zəruri olan tapşırıqlar verir. Bölmələrdə şəxsi heyətin sağlamlığını qorumaq üçün daim önəmli addımlar atır.

Səlim həkim deyir ki, səhhəti ilə bağlı müraciət edən hər bir əsgəri diqqətlə dinləyir, onu ciddi müayinə edirik. "Əgər ehtiyac yaranarsa, hospitala göndərilir. Həkimlərimiz tez-tez bölmələrdə profilaktik işlər apardıqlarına görə xəstələrimiz olmur. Bu da xidməti fəaliyyətimizin düzgün təşkilindən irəli gəlir."

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Tarixi unutmuruq, tarix unudulmur

Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.*



Azərbaycan əsgəri yaxın vaxtlarda səngərlərini əzəli sərhədlərimizə köçürəcək...

Aprel döyüşləri tarix yazdı; tarix unudulmur, tarixi unutmuruq...

...Düşmənin irimiqyaslı təxribatlarının qarşısı alınmalıydı...

Aprelin 1-dən 2-nə keçən gecə komandanlığın əmriylə leytenant Zülfü Rzayev, kiçik çavuş Elgün Bədəlov, Rövşən Rəhimov, Üzeyir Nəcəfov, İsmayıl Nəsirov, Teymur Əliyev, Nemət Haqverdiyev addım-addım Lələtəpəyə yaxınlaşırdı. Bir-birinin izinə iz qoymaqla, səssiz-səmirsiz, ehtiyatla...

O anlarda nələr düşünürdülər? - Şuşanımı, Xocalı faciəsinimi, qışın sazağında donan analarımı, düşmənin yaxınlaşdığını hiss edəndə canına qəsd eləyən sonalarımı, son nəfəsi dodaqlarında qalan ananın qucağında donan körpələrimi, düşmənin hənirtisini eşidincə qızını, sonra özünü öldürən atalarımı, ...

Lələtəpənin ətəyindəydilər...

...Hiss etdilər ki, snayperlərin atışı altındadırlar. Bir qədər daldalanaraq müşahidə apardılar. Atəşin mənbəyini müəyyənləşdirmək çətin olmadı (döyüşdən sonra məlum olacaqdı ki, düşmənlər təpənin sol cinahındakı qəbirlərdən meyitləri çıxardaraq oradan səngər kimi istifadə eləyib, orada snayperlər yerləşdirib). Əks-həmlənin başlanması ərəfəsində komandirin əmriylə İsrafil Əhmədovun atdığı qumbaraatan mərmisi snayper qarışıq mövqenin "altını üstünə çevirdi"...

Həmin anlarda Lələtəpənin sol cinahında üç tank göründü. Müdafiə səddini yarmaq, döyüşçülərimizi səngərlərdən çıxartmaq, öldürmək niyyəti ilə təmas xəttinə tərəf üç ölüm maşını gəlirdi. O anlarda əsgərlərimizin ürəyindən gözlərinə işıq axdığına zərrəcə şübhə etmirəm...

Bir-birinə söykəkli üç atəş açıldı. Düşmənin tanklarının üçü alışdı.

Dan yeri sökülər-sökülməz bir tank da göründü. Bayaqkı ekipaj - Hacı Əhmədov, tuşlayıcı Yalçın Abbasov, sürücü-mexanik Rövşən Manafov bir az da gözləməyi qərara aldı...

Atəş sərrast oldu - düşmən tanklarından biri "yerə yapışdı"...

...Tanklar üz-üzəydi. Düşmən tankları irəliləməyə cəsarət eləmirdi.

...O anlarda Lələtəpəyə yaxınlaşanlarımız hiss elədilər ki, qarşı tərəfdən atəş aramla zəifləyir. "Əlavə qüvvə gələcəyinə ümidlidirlər", - mayor Elnur Əliyev düşünmüş, atəşin bir qədər sağ cinahdan aparılmasını qərara almışdı...

Düşmən qətiyyətlə müdafiə olunduğundan mövqe uğrunda döyüş altı saatdan çox çəkdi. Müdafiə olunan, mövqeni saxlamaq istəyən düşmənlər məhv edildi...

Düşmənlərdən biri qaçmaq istədi. Leytenant Zülfü Rzayev onun uzaqlaşmasına imkan vermədi; düşmən torpağa sərili qaldı...

...Əks-həmlə səngimişdi - düşmən geri çəkilməkdəydi. Komandir sövq-təbii, sağ tərəfdə vuruşan əsgərə baxdı. Əsgər tərpənmirdi. Səslədi. Cavab gəlmədi. Qəlbinə daman damdı: əsgər şəhid olmuşdu...

Əsgərin sol əli sinəsinə uzalı qalmışdı. Barmaqlarının arasında Azərbaycanımızın üçrəngli bayrağı görünürdü. Komandirin gözləri doldu. Dodaqlarını dişləriylə sıxıb əsgərin üstünə döşəndi. İçin-için ağladı. Başını qaldıranda başqa əsgərləri də yaxınlıqda gördü. Hamısının yanağı boyunca göz yaşları axırdı. Hamısının əlində bayrağımız dalğalanırdı. Hamısı döyüşə bayrağımızla qoşulubmuş. Hamısı bayrağımız eşqinə vuruşurmuş. Hamısı bayrağımızı şəhidlik kəfəni bilirmiş...

...Dövlət bayrağının işığında vuruşanlar məğlub olmur, ya qələbə qazanır, ya şəhid olur. Azərbaycan əsgəri kimi!

Hamısı düşmən geri çəkilənəcən, son nəfəsəcən, şəhid olanacan vuruşardı. Son nəfəsində bayrağımızı sıxmağa macal tapan əsgər kimi!..

...Qələbədən bir neçə gün sonra Lələtəpədəydim. Diqqətimi sağa tərəf uzanan yol çəkmişdi. Səbirsizliklə soruşmuşdum: "Bu yol hara aparır?" Əsgərlərdən biri tələsik dillənmişdi: "Böyük qələbəyə!"

Kövrəkliklə, qürurla əsgəri bağrıma basmışdım...

Yusif Mirzəyevi Ağdərədə bağrıma basdığım kimi...

Vəzir Orucovu Tərtərdə bağrıma basdığım kimi...

Göy üzünə yayılan bayrağımızın önündə diz çökdüm. Bayrağımız dalğalanırdı, ürəyim tellənirdi. Akif Nihat Asya bayrağa müraciətlə deyirdi ki, "... hara istəsən, söylə, səni oraya sancım!". Bu da Bayrağımızın seçdiyi yerlərdən biri - Lələtəpə! Azərbaycan əsgəri bayrağımızın bir istəyini yerinə yetirdi. Leytenant Zülfü Rzayev, kiçik çavuş Elgün Bədəlov, Rövşən Rəhimov, Üzeyir Nəcəfov, İsmayıl Nəsirov, Teymur Əliyev, Nemət Haqverdiyev sancdı bayrağımızı Lələtəpənin zirvəsinə! O anlarda nələr düşünüblər görəsən? - Əsgəranı, Şuşanı xatırlayıblar, şübhəsiz. Bu bayrağı Cıdır düzündə dalğalandırmaq keçib könüllərindən. Bayrağımızı zirvəyə sancanların əllərindən öpmək istədim, qoymadılar...

...Düşüncələrində istəklə tərəddüd çarpışmaqdaydı; istəyini bildirməyə tərəddüd edirdi, tərəddüdünü yumşaltmağa, yumşalda-yumşalda əritməyə çətinlik çəkirdi. Nə onu bacarırdı, nə o birini. Nə ondan uzaqlaşa bilirdi, nə o birindən.

Əsgər Samir Həsənova on günlük məzuniyyət verilmişdi. Tərəddüd istəyi günüləyirdi, istək tərəddüdü. Getsinmi - necə getsin, qalsınmı - necə qalsın?.. Ermənilər atəşkəsi tez-tez pozurdu. Səngərdaşını, səngər qardaşını dar ayaqda qoyub getməyi şəninə sığışdırmırdı. Həm də qardaş toyunda doyunca, yorulunca oynamaq keçirdi könlündən...

Yoldaşlarının təkidi ilə məzuniyyətə getdi...

...Sabah toy olacaqdı.

Açıq pəncərədən otağa dolan səhər yeli şahlıq eləyirdi. Vaxt öldürmək üçün televizoru açdı. Aparıcının dediklərini eşidincə qanı damarında dondu elə bil: düşmənlər onun xidmət etdiyi ərazidə də atəşkəsi pozaraq irimiqyaslı təxribata cəhd göstərirdi.

Məzuniyyəti altı gündən sonra başa çatacaqdı; hərbi hissəyə qayıtdı...

Lələtəpə uğrunda döyüşlər gedirdi...

Samir də döyüşürdü...

Hansı hissin təsirindənsə, sağ cinaha baxdı. İki-üç erməni dəydi gözlərinə. Atışın səmtini ora yönəltdi. Biri öldü. Digər ikisi qeyb oldu elə bil...

Atışı davam etdirirdi...

Qəflətən diz çökdü - güllə sinəsinə dəymişdi. Gözucu sağına-soluna boylandı...

Göy üzünün qara buludları ağır-ağır üstünə enirdi. Özünü toplayıb ayağa qalxmaq istədi, qalxa bilmədi...

Əsgər Samir Həsənov şəhid olmuşdu...

Samirin məzuniyyət vərəqi köz olub komandirin əllərini yandırırdı: məzuniyyətin qurtarmasına üç gün vardı...

...Neçə-neçə strateji mövqedən uzaqlaşdırılan, döyüşlərdə yüzlərlə əsgərini, zabitini, artilleriya qurğusunu, döyüş texnikasını itirən düşmən də, ona havadarlıq eləyənlər də Azərbaycan Ordusunun gücünü gördü, əsgərlərimizin, zabitlərimizin qətiyyəti, cəsarəti düşmənin gözünü qamaşdırdı. Gördüklərindən ürəyi burxuldu düşmənin. Sülh danışıqları baş tutmasa, döyüşdə öldürülən düşmən əsgərinin anasının təəssüfünü, ağrılarını digərləri də yaşayacaq:

...Mövqe uğrunda döyüş başa çatmışdı. Döyüşçülərimiz qələbə ovqatının kölgəliyində üzü Cəbrayıla sarı baxmaqdaydı. İstəkləri Cəbrayıldan o yandakı torpaqlarımıza meyillənmişdi. Bu müqəddəs istək onların günlərini ömür eləyəcəkdi. Lələtəpənin gen sinəsi bu istəyə darlıq eləyirdi. Şahinləşən bu istəyin qoşa qanadları əzəli sərhədlərimizin göylərində gərilməyin təşnəsiydi. Hamısı qarşıda sezilən, sürünən, görünən qaraltıları Oğul baxışlarıyla süzürdü...

Son 23 ildə bu tərəflərdə hava bunca gözəl olmamışdı...

Sağ tərəfdən uzanan yolları görüncə ürəkləri titrədi; o yolun da yolçusu olmaq istəyirdilər. Həm də elə indi...

Qəflətən öldürülmüş əsgərlərdən birinin mobil telefonuna zəng gəldi. Hamısı bu səsə sarı boylandı. Ürəyinə nə damdısa, zabitlərdən biri tələsik telefonu götürdü. Azərbaycan dilində cavab verdi. Döyüşdə öldürülmüş erməninin anasıymış. Qalib azərbaycanlı zabitinin səsini eşidəndə onun nə günə düşdüyünü təsəvvür etmək çətin deyil. Qadın Azərbaycan dilini bilirmiş (bəlkə də zamanında Bakıda yaşayıbmış). "Niyə öldürdünüz oğlumu?" - Azərbaycan dilində soruşub. Niyə öldürüldüyünü bilsə də soruşub. Dişi bağırsağını kəsə-kəsə soruşub. Erməniliyinə dirsəklənərək soruşub. Zabitin kəskin cavabını eşidib: "Sənin oğlunun Azərbaycanın torpaqlarında nə işi vardı?". Bu tutarlı cavab ölümünü özgə torpağında tapan əsgərin anasına bir mətləbi xatırladıb: işğalçı dövlətin əsgəri ölümə məhkumdu! Ona ölüm hökmünü bəd niyyətlə gəldiyi torpaq verib. Bu ölümün baiskarı onu bura göndərənlərdi. Onlardan soruş: "Oğlum niyə öldü?"...

Zabit öldürülmüş erməni əsgərinin telefonunu daşa çırpdı; döyüşdə öldürülmüş əsgərin anasının çimçəşdiyi səsini eşitmək istəmədi...

...Məqamında oğluna Vətəndən danışardı, torpaqdan, döyüşlərdən, döyüşçülərdən, şəhidlərdən, şəhidlikdən danışardı. "Sən də əsgər olacaqsan, oğlum. Sən də torpaqlarımızı işğaldan azad edənlərin sırasında olacaqsan!.." - deyərdi. Onda uşaq atasının köksünə sığınardı...

Oğlunun boyuna baxardı - qürrələnərdi, düşüncələrini eşidərdi - qürrələnərdi. Özünün yeniyetməliyinin nişanələrini görərdi oğlunda - qürrələnərdi; Oğul kimi böyütmüşdü oğlunu...

Oğlunun andiçmə mərasiminə gəlmişdi. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısındaydı. Göy üzündə göz küsdürən bulud görünmürdü. Ağacların xırdaca budaqları, budaqlarda yarpaqlar yaxınlaşanların gəlişinə elə həvəslə uçunurdu ki. Ötüb-keçənləri haraylayırdı elə bil. Ağac neçə illər əvvəl gördüyü ağacıydı. Onda təzə-təzə qol-budaq atırdı. İndi gövdələnmişdi, kölgəsinə el sığışardı...

Budaqdan bir yarpaq üzülmüşdü. Əyilib götürmüşdü. Yarpağın vaxtsız üzülüşünə təəssüflənmişdi...

Kövrəlmişdi. Elə bil zaman dayanmışdı. 20 il əvvəlki zamana düşmüşdü sanki. Məkan həmin məkanıydı, yaş o yaş deyildi. Ürəyi kürlük eləyirdi. Təsadüfün kövrəkliyinə, kövrəkliyin təntənəsinə sığınıb baxırdı. Bu təsadüfü Tanrı töhfəsi bilib baxırdı. İllərin o üzündə qalanları ömür bilib baxırdı. Ürəyinə təpər bilib baxırdı, gözlərinə nur bilib baxırdı...

Oğlu onun zamanında xidmət elədiyi hərbi hissədə xidmət edirmiş! "Xidmət yolumun davamçısıdı oğlum!" - qınayan olmasa, var səsiylə qışqırardı. Nə həzin-həzin əsən, arada çılğınlaşan küləyi duyurdu, nə də sağında-solunda kəlmələşənlərin səsini eşidirdi; zamanında yaşadıqlarına dil verib dilləndirən xatirələriylə baş-başa qalmışdı:

O da əsgəriydi. O da torpaqlarımızı qoruyanların sırasındaydı. O da döyüşürdü...

Evinin daşı-divarı mərmilərlə yaralananların, səksəkədən ürəyi paralananların titrək ümidi üçün döyüşürdü, şəhid anasının qəhəri üçün döyüşürdü, gecələrin açılmalı səhəri üçün döyüşürdü, güllərin-çiçəklərin qoxusu üçün döyüşürdü, körpələrin qorxusuz yuxusu üçün döyüşürdü...

Hərbi hissədə xətri əzizlənən əsgəriydi - cəsarətliydi, qorxmazıydı, intizamlıydı. Üç nəfərlə düşmənin qarşısını üç saat saxlamağı bacaran əsgər yazda yağışdan, qışda sazaqdan, yayda bürküdən keçib döyüşürdü...

Yarı canı hərbi hissələrində qalsa da, tərxis olundu; atəşkəs elan olunandan sonra onu da tərxis elədilər...

İllər keçmişdi...

Ötənlər az qala gözlərindən yaş dərəcəkdi.

Həmin gün oğluna "Mən də burada xidmət eləmişəm, oğlum. Yaxşı xidmət eləmişəm. Ata-balayıq, indi xidmət yoldaşı oluruq səninlə..." - dedi. Kövrəkliklə dedi, həm də ümidlə dedi. Bu ümid inam gücündəydi. İnanırdı ki, oğlu da yaxşı xidmət eləyəcək...

Ermənilərin kəşfiyyat-diversiya qrupları o günlərdə də təmas xəttində əməliyyatlar aparmağa cəhd göstərirdi. Azərbaycan əsgəri düşmənin murazını gözündə qoyurdu...

Aprel, 2016...

Cəbrayılın Lələtəpə yüksəkliyi...

Döyüş gedirdi. Qara niyyətlə torpaqsevərliyin döyüşüydü bu döyüş. Əsgərlərimiz "...lazım gələrsə, canımdan da keçməyə hazıram..." - andının işığında döyüşürdü. Şəhidlərimizin pıçıltısını, işğal olunmuş torpaqlarımızın harayını eşidə-eşidə döyüşürdü...

Əsgər son nəfəsində də "Vətən!.." - dedi...

...O əsgər neçə il əvvəl "Sən də əsgər olacaqsan, oğlum. Torpaqlarımızı işğaldan azad edənlərin sırasında sən də olacaqsan!.." - deyən atanın oğluydu...

Əsgər şəhid oldu...

Şəhid oğlunun dəfn mərasimində onun pıçıltısını əsən yellərdən, qönçəsindən boy göstərən güllərdən, doluxsunan göylərdən, ... savayı eşidən olmadı...

"Mənim yolumu sən davam etdirirdin, oğlum. Torpaqlarımızı işğaldan azad edənlərin sırasında sən də olacaqdın. Qismət deyilmiş. Şəhid oldun. İndi səni mən əvəz eləyəcəm, oğlum! Döyüşlərdə sənin əvəzindən mən vuruşacam. Sən yenə sıradasan, mənim balam. Ruhunun sızıldamasına qıymaram..." - deyirdi ata...

...Tarixi unutmuruq, tarix unudulmur...

**Rəşid FAXRALI,**
**əməkdar jurnalist**

*(Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün)*

Ordu və cəmiyyət

# "Sənindir bu gün zəfər"

*Bildiyimiz kimi, oktyabrın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Yazıçılar Birliyinin bir qrup üzvü ilə görüşüb. Görüşdə qeyd edilib ki, belə tədbirlərin mütəmadi keçirilməsi zəruridir. Ziyalılar, şair və yazıçılar, ictimai xadimlər Azərbaycan əsgərinin yanında olmaqla bərabər, gənclərimizin, gələcək nəslin vətənpərvərlik ruhunda, döyüş əzmində tərbiyə olunmasında müstəsna rol oynamalıdır.*

Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, xalq şairi, Dövlət Mükafatı laureatı Fikrət Qoca ilə görüşdük. Xalq şairi ötən əsrin 60-cı illərindən etibarən söz sənəti xəzinəmizə özünəxas ifadə tərzi ilə dəyərli töhfələr bəxş etmiş ədəbi nümayəndələrimizdəndir. Onun mənəvi ucalığa çağırışla, lirik-fəlsəfi düşüncələrlə zəngin olan əsərləri özünə geniş oxucu auditoriyası qazanıb. Eyni zamanda onun azadlıq və istiqlal ideyalarını tərənnüm edən şeirləri, poemaları gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində böyük əhəmiyyət daşıyır. Ədəbi fikir xəzinəmizdən, milli folklordan bəhrələnən Fikrət Qoca yaradıcılığı ana dilimizə sevgi və ehtiramının parlaq təzahürüdür. Müasir ədəbi-mədəni proseslərin azərbaycançılıq məfkurəsinə uyğun istiqamətləndirilməsi işində şairin səmərəli fəaliyyəti dövlətimiz tərəfindən daim öz qiymətini alıb.

"Şöhrət" və "Şərəf" ordenli ağsaqqal şairimiz söhbətimizdə bəzi sualları cavablandırdı, xüsusən də ordumuzun aprel qələbəsi üzərində çox dayandı. "Prezidentimiz cənab İlham Əliyev 28 May Respublika Günü ərəfəsində Dövlət Mükafatını mənə təqdim edərkən orada çıxışımda bildirdim ki, aprelin əvvəllərində ordumuzun apardığı uğurlu əməliyyatlar tarixə qızıl xətlə yazıldı. Allah mənə də ömür verdi, nə yaxşı ki, o qələbənin sevincini mən də, xalqımız da bərabər yaşadıq. Artıq çox ümidliyəm ki, Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuz tezliklə torpaqlarımızı düşməndən geri alacaq, qaçqın və köçkün həmvətənlərimiz doğma yurd yerlərinə qayıdacaqlar. Xalqımız bir daha əmin oldu ki, bizim güclü ordumuz var və bu qüdrətli ordu düşmən üzərində Böyük Qələbəmizi təmin edəcək. Mən aprel döyüşlərində hərbçilərimizin döyüş əzmini gördüm. Bu qələbə mənim üçün bir ömrə dəyər qələbə oldu. Bundan başqa burada bir həqiqət öz təsdiqini tapdı: güc ağılla idarə olunmazsa, uzağa getmək mümkünsüzdür. Gücə qarşı həmişə güc tapılar. Əslində, gücü ağılla idarə edəndə qalib gəlir".

Bugünkü ordumuzun dəmir özüllər üzərində qurulduğunu fəxarət hissiylə söyləyən xalq şairimiz Fikrət Qoca onu da vurğuladı ki, ulu öndər Heydər Əliyevin memarı olduğu ordumuzun təməli möhkəmdir. "Bilirsiz, bir bina tikiləndə əvvəlcə onun bünövrəsi qoyulur. Əgər bünövrə əyri qoyulubsa, onun üzərindəki bina sonda əyiləcək. Deməli, binanın özülü düzdürsə, o heç vaxt əyilə bilməz. Bütün bunları ona görə deyirəm ki, həqiqətən də bizim ordumuzun təməli Ümummilli Liderimizin uzaqgörən siyasəti sayəsində əyilməz qoyulub. Və bu gün ordumuzun yenilməz olması məhz Ulu Öndərin adı ilə bağlıdır:



*Dahi Heydər bir yol açdı,*
*İlham sədlə, dağlar aşdı,*
*Prometey tək od gətirdi,*
*Azərbaycan işıq saçdı.*

Xalqımızın böyük oğlu Heydər Əliyevin qurucusu olduğu Azərbaycan Ordusu onun layiqli davamçısı Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin daimi diqqət və qayğısı nəticəsində günü-gündən qüvvətlənir və daha da əyilməz olur".

Hər dönəmdə dövlətçiliyə, xalqa sədaqətlə xidmət edən ədəbiyyatımızın təkcə Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi əzmkarlıqdan danışan ağsaqqal şairimiz söhbətində onu da qeyd etdi ki, sözün gücü, sözün dəyəri döyüşə atılan əsgərə hava, su qədər gərəklidi. "Böyük Vətən müharibəsi illərində "Qələmini süngüyə çevirən" neçə-neçə şair və yazıçı sözün gücü ilə döyüşürdü. "Döyüşən misralar" əsgərləri faşizm üzərində qələbəyə səsləyirdi. Tanınmış ədiblərimizdən Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Osman Sarıvəlli, Qılman İlkin və başqaları ön cəbhəyə gedərək döyüşçülər qarşısında çıxış edirdilər. Hətta aylarla orada qalıb səhra şəraitində qəzet çap edirdilər. Döyüşən əsgərlər həmin qəzetlərdən şairlərimizin yeni yazdığı şeirləri oxuyub, döyüşə ruhlanırdılar."

Xalq şairi Fikrət Qoca çağdaş Azərbaycan ədəbiyyatında bu günümüzə, sabahımıza gərəkli olan Qarabağ müharibəsi mövzusunun aktuallığından da geniş söhbət açdı və bu müharibə haqqında yazılan qədər indiyədək heç bir sahədən yazılmadığını dedi: "Çox dəyərli və kifayət qədər dolğun əsərlər var. Sadəcə o əsərləri tapıb oxumaq lazımdır. Ona görə də biz istəyirik ki, cəbhə xəttində yerləşən hərbi hissələrdə kitabxanalar açaq, şair və yazıçılarımız, ziyalılarımız öz imzalarını qeyd etməklə kitablarını buraya göndərsinlər. Yaxud da onlar əsgər və zabitlərimizlə görüşlər keçirib kitablarını təqdim etsinlər. Bu məsələlərin həyata keçirilməsi üçün ciddi iş aparılmalıdır."

Qarabağ müharibəsi mövzusunu yaradıcılığının əsas qayəsi sayan ağsaqqal şairimiz Vətənə, torpağa, şəhidlərimizə və döyüşlərə, doğma Vətəndə qaçqın, köçkün həyatı yaşayan soydaşlarımıza həsr etdiyi çoxlu sayda şeirləri olduğunu bildirdi: "Bayraq tutan oğullar" kiçik həcmli poemamı yeddi gün döyüşən Natiq adlı gənc əsgərə həsr etmişəm. İki erməni onu qarşısına salıb aparır, lakin o bayrağımızı əlində tutub möhkəm saxlayır:

*Diz çöküb and içəndə,*
*O müqəddəs bayrağa,*
*Şəhid oğullarımın,*
*Ruhu qalxdı ayağa.*

Sonda görkəmli şairimiz Prezident, Ali Baş Komandan İlham Əliyevə, ordumuzun əsgər və zabitlərinə cansağlığı, uzun ömür, Vətənə xidmətlərində uğurlar arzulayıb, maraqlı söhbətini bu misralarla bitirdi:

*Haydı irəli, əsgər!*
*Ayağının səsindən*
*Göy titrəyər, yer əsər!*
*Qisas! Qisas! Qisas al!*
*Sənindir bu gün zəfər.*

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr

## Zirehli təmir-təxliyə maşını

BREM-1 zirehli təxliyə maşını "Ukroboronprom" dövlət konserninin "Lvov zirehli tank zavodu" dövlət müəssisəsində hazırlanıb.

Zirehli təmir-təxliyə maşını (BREM-1) köhnəlmiş və zədələnmiş texnikaların (ZTR, PDM, DDM, tankların və s.) təxliyə edilməsi üçün təyin edilib. Bu maşın səhra şəraitində lazımi təmir və texniki xidmət göstərir. BREM-1 zirehli maşını A.Morovun rəhbərliyi altında T-72 tankının modeli əsasında hazırlanıb və 1975-ci ildə silahlanmaya qəbul edilib.



Təxliyə maşını silahlanmada T-64, T-72, T-80 tankları və onların modelləri olan bölmələr üçün təyin edilmişdir. Torpaq üzərində qarmağını qaldırma hündürlüyü dörd metrdən çoxdur. Trosun uzunluğu 200-400 metr, sarınma sürəti saniyədə 0,217 metr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Çində kömür mədənində baş verən partlayış nəticəsində 32 nəfər ölüb



Dekabrın 4-də səhər saatlarında Çinin Daxili Monqolustan muxtar bölgəsindəki kömür mədənlərindən birində baş verən partlayış nəticəsində 32 nəfər ölüb.

Partlayış zamanı mədəndə 181 şaxtaçı olub. Hadisədən sonra 149 şaxtaçı mədəndən çıxa bilib.

## Türkiyənin "Göytürk-1" optik peyki kosmosa çıxarılıb




Türkiyə Silahlı Qüvvələrinin (TSK) "Göytürk-1" optik peyki dekabrın 5-də yerli vaxtla saat 16:51-də fəzaya buraxılıb.

TSK-nin rəsmi saytında yerləşdirilən məlumata əsasən, peyk dünyanın istənilən bölgəsindən həm hərbi, həm də mülki əhəmiyyətli çəkilişlər aparacaq.

Hərbi Hava Qüvvələrinin layihəsi olan peyk Türkiyənin "Aviasiya və Kosmik Sənaye" şirkəti tərəfindən hazırlanıb.

## İŞİD-in "neft naziri" öldürülüb



İraq xüsusi təyinatlıları Mosul yaxınlığındakı Naynava əyalətində İŞİD terror qruplaşmasının "neft naziri"ni zərərsizləşdiriblər. Bu barədə bazar ertəsi günü İraqın terrorizmlə mübarizə idarəsi məlumat yayıb.

İdarənin məlumatına görə, məhv edilən terrorçu Ashad Abu Azam adlı şəxsdir. Bir müddət əvvəl Mosul əməliyyatının gedişində İŞİD liderlərindən daha biri - qruplaşmanın "informasiya naziri də öldürülmüşdü.

## "Leviathan" qaz yatağı üzrə iki milyard dollarlıq saziş imzalanıb



İsraildəki "Leviathan" təbii qaz yatağının işlənməsi üzrə tərəfdaşlar bu ölkənin "Or Energies" şirkəti ilə 2 milyard dollar dəyərində qaz sazişi imzalayıblar.

Saziş üzrə "Or Energies" şirkəti 20 il ərzində ümumilikdə 8,8 milyard kubmetr təbii qazla təmin olunacaq. "Or Energies" həmin qaz həcmini həyata keçirməyi planlaşdırdığı 600 meqavatlıq elektrik stansiyasında istifadə edəcək.

Qeyd edək ki, ABŞ-ın "Noble Energy" şirkəti operatoru olduğu "Leviathan" yatağında 39,66 faizlik paya sahibdir. Yataqda İsrailin "Delek" ilə "Avner" şirkətləri hər biri 22,67 faizlik paya, bu ölkənin "Ratio" şirkəti isə 15 faizlik paya sahibdir. 2010-cu ildə kəşf edilən "Leviathan" yatağının təxminən 622 milyard kubmetr təbii qaz ehtiyatı var.

## Şavkat Mirziyayev Özbəkistanın yeni Prezidenti seçilib



Özbəkistan Liberal-Demokrat Partiyasının təmsilçisi Şavkat Mirziyayev 88,61 faiz səslə bu ölkənin yeni Prezidenti seçilib.

Bu barədə Özbəkistan Mərkəzi Seçki Komissiyası məlumat yayıb.

Xatırladaq ki, dünən Özbəkistanda növbədənkənar prezident seçkiləri keçirilib.

Seçkilərdə Şavkat Mirziyayevlə yanaşı, Özbəkistan Xalq-Demokratik Partiyasının nümayəndəsi Xatamcon Ketmanov, "Ədalət" Sosial-Demokrat Partiyasının təmsilçisi Nəriman Umarov, "Milli Dirçəliş" Demokratik Partiyasının nümayəndəsi Sarvar Atamuradov iştirak ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Əlillər dövlət qayğısı ilə əhatə ediliblər

*Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasında Beynəlxalq Əlillər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Əfqanıstan və Qarabağ müharibəsi əlilləri, veteranları, Çernobıl qəzasının iştirakçıları və digər qonaqlar iştirak ediblər.*



Məlum olduğu kimi, bu və ya digər səbəbdən sağlamlığını itirmiş insanların sosial müdafiəsi ölkəmizdə dövlət rəhbərliyinin diqqət mərkəzindədir. Bu əlillərin böyük qismi Qarabağ müharibəsi zamanı xəsarət alıb. Eyni zamanda keçmiş Sovetlər Birliyi dövründə Əfqanıstandakı hərbi əməliyyatlarda və Çernobıl atom-elektrik stansiyasında baş vermiş dəhşətli qəzanın aradan qaldırılmasında fədakarlıq göstərmiş soydaşlarımız sağlamlıqlarını itirmişlər.

Hələ böyük öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə dövlət qayğısına ehtiyacı olan bu insanların problemlərinin həlli və cəmiyyətə inteqrasiyası ilə bağlı mühüm addımlar atılıb, sosial müdafiəsini təmin etmək üçün dövlət proqramı hazırlanıb. Həmin proqramda fiziki cəhətdən qüsurlu insanların reabilitasiyası və sosial müdafiəsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş geniş tədbirlər bu gün də ölkəmizdə həyata keçirilir.

Sağlamlığını itirmiş vətəndaşlarımıza qayğı, onların sosial hüquqlarının müdafiəsi müasir dövrdə də Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Əlillərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, reabilitasiyası üçün görülən kompleks tədbirlər onların rifah halının yaxşılaşdırılmasına imkan yaradıb. Ölkəmizdə əlillərə sağlamlıq və reabilitasiya, pulsuz istirahət, nəqliyyat vasitələrilə təminatla bağlı dövlət qayğısı həyata keçirilir. Paytaxt Bakıda və ölkəmizin rayonlarında bu qəbildən olan insanların sağlamlığını qorumaq üçün reabilitasiya mərkəzləri fəaliyyət göstərir.

Mərkəzi Hərbi Sanatoriyanın kollektivi də hərbi qulluqçular, onların ailə üzvləri, hərbi təqaüdçülərlə yanaşı, müharibə əlillərinin sağlamlığının müdafiəsi üçün xeyli iş görür, onların keyfiyyətli istirahət və müalicəsini təşkil edir. Beynəlxalq Əlillər Günü münasibətilə sağlamlığını itirmiş Əfqanıstan, Qarabağ müharibələri əlillərinin sanatoriyaya dəvət edilməsi onlara Müdafiə Nazirliyi tərəfindən göstərilən qayğının bariz nümunəsidir.

Tədbirdə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik-leytenant Mehdi Mehdiyev, Azərbaycan Çernobıl Əlilləri İttifaqı İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədr müavini İlham Əliyev və başqaları çıxış edərək ölkəmizdə əlillərin sosial müdafiəsi və reabilitasiyası ilə bağlı görülən işlərdən danışaraq göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Redaksiyamızın poçtundan

# Hamımızın qardaşısan, əsgər qardaşım!..



Aprel döyüşlərindən aylar keçib. O günlərin sevincini, qürurunu yaşamaqdayıq, yaşayacağıq. O günlərdə hamı - qoca da, cavan da, uşaq da, əlil də döyüşlər gedən yerlərə can atırdı. Onları ora ürəyi aparırdı. Müəllimlərimdən biri deyirdi ki, həmin günlərdə Qarabağ müharibəsi əlilləri də döyüşlərə getmək, döyüşənlərlə bir sırada olmaq üçün rəsmi icazə istəyirmişlər. Bu məlumat bizim də ürəyimizi coşdurmuşdu. Vətən sevgisini onda daha əhatəli şəkildə anladıq. Bir daha dərk elədik ki, Vətəni hamı qorumalıdır. Vətən hamımızın Vətənidir...

Aprel zəfəri təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Azərbaycan əsgəri belə bir orduda xidmətiylə qürurlanır, biz onlarla qürurlanırıq. Həmin günlərdə yaşadığımız duyğuları yenə yaşamaq istəyirik. Həm də yaxın vaxtlarda. Bu dəfə daha böyük miqyasda. Üçrəngli bayrağımız Şuşada da, Ağdamda da, işğaldan azad ediləcək digər torpaqlarımızda da dalğalanacaq. O günün həsrətindəyik.

Bu ilin əvvəllərində cəbhə bölgələrində bir tədbir keçirilmişdi: "Ordu xalqın, xalq ordunun dayağı". Həqiqətən ordumuz xalqımızın dayağıdır - torpaqlarımızı qoruyur, düşmənin təxribatlarının qarşısını alır. Həqiqətən xalq ordunun dayağıdır - həmişə ordunun yanındadır. Bunu aprel döyüşləri də təsdiqlədi. Neçə qonşumuz o günlərdə döyüşlər gedən bölgələrə yollandılar. Sıralarında yeniyetmələr də vardı. Ordumuz kifayət qədər gücə malik olsa da, çoxları belə vaxtlarda ora getməyi vətəndaşlıq borcu bilirdi. Cəbhə xəttinə gedənlərdən eşitdiyim bir fikri heç zaman unutmaram: "Sənin yanındayam, əsgər qardaşım!". Qürurlanıram ki, xalqımızın belə yeniyetmələri, gəncləri var. Qürurlanıram ki, belə ordumuz, əsgərlərimiz var. Azərbaycanlı olmağımla mən də qürurlanıram.

Şəhid hərbçilərimizin dəfnindəki izdihamı heç kim unutmayacaq. Bu izdiham döyüşlərdə qazanılan qələbəyə görə şəhidlərə ehtiram idi. Belə ehtiram olub, var, həmişə olacaq.

"Azərbaycan Ordusu" qəzetində oxuduğum məqalələrdən birindən bir fikir yadıma düşür: "Səngər Vətənin, əsgər səngərin ürəyidi." Azərbaycan əsgərinə ehtiram olan bu fikir mənim də düşüncələrimi coşdurdu. Bu ehtirama biz gənclər də ortağıq...

Aprel döyüşlərində oğlu şəhid olmuş ananın dedikləri hamı kimi məni də kövrəltdi: "...torpaqlarımız işğaldan azad ediləndə təsəlli tapacam...". Bu kəlmələr azərbaycanlı ananın ürəyinin böyüklüyünün, Vətən sevgisinin, torpaq sevgisinin nəticəsidi. Kiminin oğlu şəhid olub, kiminin qardaşı, kiminin əmisi-dayısı oğlu, kiminin qohumu... Hamı öz dərdini torpaqlarımız işğaldan azad ediləndə unudacaq. Elə mən də...

...Rəfiqələrim kimi mən də əsgərlərimizə xitabən "Sən hamımızın qardaşısan, əsgər qardaşım!.." deyirəm...

**Hüsniyyə İDRİSOVA**

# İdman

## Karate üzrə Əməkdar məşqçimiz "Moskva Masters" açıq beynəlxalq turnirində iki mükafat qazanıb



Karate üzrə milli komandalarımızın fiziki hazırlıq üzrə məşqçisi, Əməkdar məşqçi Oqtay Məmmədov Rusiyada "Moskva Masters" birinci açıq beynəlxalq turnirində iki mükafata sahib olub.

O, 51 yaşdan yuxarı kişilər arasında kumite yarışlarının qızıl, veteranlar arasında 56 yaşdan yuxarı kata çıxışlarında isə bürünc medal qazanıb.

Moskva Karate Federasiyasının təşkil etdiyi ilk açıq beynəlxalq turnirdə 10-dək ölkədən 35 yaşdan yuxarı kişi və qadın idmançılar, eləcə də veteranlar iştirak ediblər.

## İdmançımız Avropa çempionatında bürünc medal qazanıb



İsrailin Eylat şəhərində 20 və 23 yaşadək idmançılar arasında ağır atletika üzrə Avropa çempionatı davam edir.

Dekabrın 10-dək davam edəcək yarışda Azərbaycan yığma komandası da mübarizə aparır.

Çempionatda 56 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan Kənan Xəlilov 20 yaşadək idmançılar arasında qitə birinciliyinin bürünc medalına sahib olub.

Atletimiz birdən qaldırma hərəkətində yaxşı çıxış edib. O, üçüncü yanaşmasında 110 kiloqramı ram edərək bütün rəqiblərini üstələyib. Bir müddət əvvəl Azərbaycan kubokunun sahibi olan K.Xəlilov təkanla qaldırma hərəkətində 118 kiloqramı başı üzərinə qaldıra bilib.

## Bakıda taekvando üzrə Qran-pri turniri keçiriləcək



Dekabrın 9-10-da Bakıda taekvando üzrə Qran-pri turnirinin final mərhələsi, dekabrın 12-13-də isə komandalararası dünya çempionatı keçiriləcək.

Dünya Taekvando Federasiyasının və Azərbaycan Taekvando Federasiyasının birgə təşkilatçılığı ilə "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçiriləcək beynəlxalq Qran-pri turnirinin finalında dünyanın reytinqli 16 kişi və qadın taekvandoçuları mübarizə aparacaqlar. Turnirin qalibləri 6 min dollar və 80 reytinq xalı, finalçılar 3 min dollar və 48 reytinq xalı, bürünc medala layiq görülən idmançılar isə 1000 dollar və 28,8 reytinq xalı əldə edəcəklər.

## Azərbaycan kubokunda dörddəbir final mərhələsinin ilk oyunlarının vaxtı açıqlanıb




Futbol üzrə Azərbaycan kuboku yarışlarının dörddəbir final mərhələsinin ilk oyunlarının vaxtı açıqlanıb. Bütün qarşılaşmalar eyni gündə oynanılacaq.

Dekabrın 13-də keçiriləcək matçlara Qəbələdə start veriləcək. Ardınca digər üç görüş paytaxtda təşkil olunacaq. Dörddəbir finalın ilk oyunları çərçivəsində "Qəbələ"-"AZAL, "Zirə"-"Neftçi", "İnter"-"Kəpəz" və "Qarabağ"-"Sumqayıt" görüşləri keçiriləcək.

Qeyd edək ki, bu mərhələnin cavab oyunları dekabrın 21-də təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Cəfərov Fizuli Aqif oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 582
Nüsxə 4650